# Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu zamanı adambaşına müəyyən edilən sıxlıq normaları" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki:

2.1. koronavirus (COVID-19) pandemiyası dövründə insanların sıx toplaşmasının xəstəliyin yayılma intensivliyinə birbaşa təsirini nəzərə alaraq, ictimai iaşə müəssisələrinə müştəri qəbulu qüvvədə olan norma və qaydalardan 2 dəfə az olmalı və müvafiq olaraq hər adambaşına müəyyən edilən sahə ikiqat artırılmalıdır;

2.2. *ictimai iaşə müəssisələrinin* qida qəbulu zallarında*, otaqlarında, habelə onların açıq hava sahələrində* oturacaqların ara məsafəsi eyni masa arxasında 1 metrdən, masalararası məsafələr isə 2 metrdən az olmamalıdır;[1]

2.3. hər bir ictimai iaşə müəssisəsinin qarşısındakı lövhədə həmin müəssisənin qida qəbulu yerlərinin (zallar, otaqlar və s.) ümumi sahəsi, oturacaq yerlərinin sayı, masalararası məsafə, adambaşına müəyyən edilən sıxlıq normaları göstərilməlidir;

*2.4. bu Qərarın məqsədləri üçün ictimai iaşə obyekti dedikdə, yeyinti məhsullarının istehsalı, emalı, satışı və istehlakının təşkili ilə əlaqədar xidmət fəaliyyətini həyata keçirmək məqsədilə istifadə edilən əmlak kompleksi (restoran, kafe, yeməkxana, qəlyanaltı, bufet, köşk tipli məkanlar, çay evləri və bu kimi digər obyektlər) nəzərdə tutulur;*

*2.5. ictimai iaşə obyektinin açıq hava sahəsi dedikdə, ən azı üç tərəfdən bütövlükdə hava axınına tam açıq (bir metrdən hündür hər hansı tikili və digər konstruktiv maneəsiz) sahə və ya üzəri tam açıq (açıq səma altında) sahə nəzərdə tutulur;*

*2.6. ictimai iaşə obyektlərinin giriş-çıxışlarında, kassalarda dezinfeksiya məhlulundan istifadə imkanı, o cümlədən dezinfeksiya məhlulundan istifadə üçün müvafiq qurğuların (dispenserlərin) yerləşdirilməsi və həmin qurğuların işlək vəziyyətdə olması təmin edilməlidir;*[2]

*2.7. ictimai iaşə obyektində koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarının qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin təşkili, yoluxma hallarının effektiv idarə edilməsi, qonaqlara, işçi heyətə və digər əlaqəli tərəflərə bu cür hallarla bağlı təsirlərin minimuma endirilməsi üçün operativ nəzarət üzrə məsul şəxs (bundan sonra – məsul şəxs) təyin edilməli və bu təyinat rəsmiləşdirilməlidir;*

*2.8. məsul şəxs koronavirusla (COVID-19-la) mübarizə ilə bağlı xəbərdaredici məlumatların qonaqlara, işçi heyətə və digər əlaqəli tərəflərə çatdırılmasını təmin etməli, işçi heyət üçün gigiyena və sanitariya qaydaları ilə bağlı təlimlər təşkil etməlidir;*

*2.9. məsul şəxs bütün təmizlik və dezinfeksiya tədbirlərinin davamlı olaraq qeydiyyatının aparılması üçün gündəlik müntəzəm nəzarət formalarını, habelə keyfiyyətə nəzarət cədvəllərini tərtib etməli və onların icrasına nəzarəti həyata keçirməlidir.*[3]

3. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və yerli icra hakimiyyəti orqanları bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 iyul 2020-ci il
237

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2020-ci il 6 iyul tarixli 237 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu zamanı adambaşına müəyyən edilən sıxlıq normaları

| | Restoranlar üçün adambaşına düşən sahə ($m^2$) | Yeməkxanalar üçün adambaşına düşən sahə ($m^2$) | Kafelər, qəlyanaltılar, gənclər və uşaqlar üçün kafelər (fast-food) üçün adambaşına düşən sahə ($m^2$) | Barlar üçün adambaşına düşən sahə ($m^2$) | Ali təhsil müəssisələrinin yeməkxanaları üçün adambaşına düşən sahə ($m^2$) |
|---|---|---|---|---|---|
| **Qida qəbulu zalları, *otaqlar, habelə açıq hava*** | | | | | |

| *sahələri*[4] | **100 nəfərə qədər** | **100 nəfərdən sonrakı hər adam üçün əlavə** | **50 nəfərə qədər** | **50 nəfərdən sonrakı hər adam üçün əlavə** | **50 nəfərə qədər** | **50-200 nəfər arası hər adam üçün əlavə** | **200 nəfərdən sonrakı hər adam üçün əlavə** | **50 nəfərə qədər** | **50 nəfərdən sonrakı hər adam üçün əlavə** | **100 nəfərə qədər** | **100 nəfərdən sonrakı hər adam üçün əlavə** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Özünəxidmət | - | - | 4,72 $m^2$ | 4,24 $m^2$ | 3,84 $m^2$ | 3,92 $m^2$ | 3,82 $m^2$ | 4,24 $m^2$ | 3,76 $m^2$ | 4,28 $m^2$ | 4,16 $m^2$ |
| o cümlədən qida paylayıcı xətt qida qəbulu zalına daxil olduqda | - | - | 7,2 $m^2$ | 3,6 $m^2$ | 6,4 $m^2$ | 3,2 $m^2$ | 3,2 $m^2$ | 3,2 $m^2$ | 3,2 $m^2$ | 3,6 $m^2$ | 3,6 $m^2$ |
| Xörəkpaylayanlar vasitəsilə xidmət | 5,08 $m^2$ | 4,4 $m^2$ | - | - | 3,64 $m^2$ | 3,5 $m^2$ | 3,5 $m^2$ | 3,84 $m^2$ | 3,36 $m^2$ | - | - |
| o cümlədən qida paylayıcı xətt qida qəbulu zalına daxil olmadıqda | 3,6 $m^2$ | 3,6 $m^2$ | - | - | 2,8 $m^2$ | 2,8 $m^2$ | 2,8 $m^2$ | - | - | - | - |
| o cümlədən qida paylayıcı xətt qida qəbulu zalına daxil olduqda | - | - | - | - | - | - | - | 2,8 $m^2$ | 2,8 $m^2$ | - | - |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 10 avqust 2020-ci il tarixli **288** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 avqust 2020-ci il, 158, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1106**)
2. 15 avqust 2020-ci il tarixli **294** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 16 avqust 2020-ci il, 161 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1111**)
3. 23 noyabr 2020-ci il tarixli **455** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 noyabr 2020-ci il, 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1399**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 10 avqust 2020-ci il tarixli **288** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 avqust 2020-ci il, 158, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1106**) ilə 2.2-ci bəndə "**qida qəbulu**" sözlərinin əvvəlinə "**ictimai iaşə müəssisələrinin**" sözləri və "**zallarında**" sözündən sonra "**, otaqlarında, habelə onların açıq hava sahələrində** " sözləri əlavə edilmişdir.

[2] 15 avqust 2020-ci il tarixli **294** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 16 avqust 2020-ci il, 161 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1111**) ilə Qərarın 2.3-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.4-cü, 2.5-ci və 2.6-cı bəndlər əlavə edilmişdir.

[3] 23 noyabr 2020-ci il tarixli **455** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 noyabr 2020-ci il, 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1399**) ilə 2.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.7-2.9-cu bəndlər əlavə edilmişdir.

[4] 10 avqust 2020-ci il tarixli **288** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 avqust 2020-ci il, 158** ) ilə "Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu zamanı adambaşına müəyyən edilən sıxlıq normaları"nın "Qida qəbulu zalları" sütununa "**zalları**" sözündən sonra "**, otaqlar, habelə açıq hava sahələri** " sözləri əlavə edilmişdir.